Qiyamət günü möminin tərəzisində gözəl əxlaqdan daha ağır gələcək başqa bir şey yoxdur. Həqiqətən Uca Allah, əxlaqsız və çirkin söz (və davranış) sahiblərinə nifrət edir

Əbu Dərda (Allah ondan razı olsun) Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyini rəvayət etmişdir. «Qiyamət günü möminin tərəzisində gözəl əxlaqdan daha ağır gələcək başqa bir şey yoxdur. Həqiqətən Uca Allah, əxlaqsız və çirkin söz (və davranış) sahiblərinə nifrət edir».

[Səhih] [Əbu Davud, Ət-Tirmizi rəvayət etdilər]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) Qiyamət günü möminin tərəzisində, əməl və sözlərdən ən ağır gələcək şeyin gözəl əxlaq olduğunu bildirmişdir. Bu da gülər üzlü olmaq, başqalarına əziyyət verməmək və yaxşılıq etməklə olur. Uca Allah əməllərində və sözlərində çirkin olana, dili ilə ədəbsiz söz danışanlara nifrət edir.

http://sunnah.global/hadeeth/az/show/5371